Azadlıq Radiosu

İDMAN

# 'İdmandan yaxşı başım çıxır' – Tramp İnfantino ilə danışığını təsdiqlədi

50 dəqiqə öncə




Folarin Baloqun

ABŞ prezidenti **Donald Tramp** Beynəlxalq Futbol Federasiyasının (FIFA) rəhbəri **Canni İnfantino** ilə danışdığını təsdiqləyib. Ağ ev rəhbəri İnfantino ilə söhbətində Dünya Çempionatında qırmızı vərəqə alan amerikalı futbolçu **Folarin Baloqun**un növbəti oyunluq cəzasının ləğvini xahiş edib.

Vaşinqtonda jurnalistlərə açıqlama verən Tramp bu söhbətdə hər hansı qanunsuzluq görmədiyini bildirib. O, Baloqunun Bosniya və Herseqovina ilə matçda meydandan qovulması ilə nəticələnən qayda pozuntusunun təsadüfi olduğunu və cəzanın ləğvinin vacibliyini qeyd edib. Bununla belə, ABŞ prezidenti FIFA-nın diskvalifikasiyanı təxirə salmaq qərarını tamamilə müstəqil verdiyini vurğulayıb: **"Mən onlara nə edəcəklərini diktə edə bilmərəm. Qərarı komissiya qəbul edib və bu, çox doğru addım idi".**

İdmandan yaxşı başı çıxdığını deyən Tramp amerikalı oyunçunun qaydanı qəsdən pozmadığına əmindir: **"Hər iki oğlan tam sürətlə qaçırdı və təsadüfən toqquşdular".** Prezident həmçinin əvvəlcə qırmızı vərəqənin təkcə meydandan qovulmaq deyil, həm də növbəti oyunu buraxmaq mənasına gəldiyini bilmədiyini də etiraf edib.

BREAKING: President Trump reveals the details of his conversation with FIFA President Gianni Infantino over the controversial red card call on star American player Folarin Balogun."All I did was ask for a review because I didn't think it was a foul. And, you know, again, I'm... pic.twitter.com/MD5Q9t44th

— Fox News (@FoxNews) July 6, 2026

## Tramp zəng etdi – Baloqunun qırmızı vərəqəsi ləğv olundu

FIFA amerikalı hücumçu **Folarin Baloqun**un qırmızı vərəqə almasına baxmayaraq, onun bu gün Belçika ilə oyunda meydana çıxmasına icazə verməklə "qırmızı xətti keçib". Bu barədə Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) bəyanatında bildirilir.

24 yaşlı hücumçu Bosniya və Herseqovina yığmasının müdafiəçisi **Tarik Muxameroviç**in ayağına təpik vurduğuna görə qırmızı vərəqə almışdı. Qaydalara əsasən, o, ən azı bir oyunu buraxmalı idi. Amma FIFA-nın İntizam Komitəsi dünən gözlənilməz qərar verərək bu diskvalifikasiyanı birillik şərti cəza ilə əvəzləyib.

Bundan əvvəl mətbuatda ABŞ prezidentinin FIFA-nın rəhbəri **Canni İnfantino** ilə telefon danışığı apardığı və amerikalı hücumçunun cəzasına yenidən baxılmasını xahiş etdiyi barədə məlumatlar yayılmışdı. Qərardan dərhal sonra **Donald Tramp** "Truth Social" platformasında yazıb: **"FIFA-ya bu aşkar haqsızlığı düzəltdiyi üçün təşəkkür edirəm".**

Belçika Kral Futbol Assosiasiyası (RBFA) bu addımın turnir reqlamentinə tamamilə zidd olduğunu vurğulayıb. Almaniya Futbol İttifaqının prezidenti **Bernd Noyendorf** isə bildirib ki, FIFA bu qərarın ABŞ prezidentinin müdaxiləsi ilə qəbul edilməsi barədə iddialara dərhal aydınlıq gətirməlidir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur